**UOT 338; 336.2**

# İLXANLILAR (HÜLAKÜLƏR) ZAMANINDA VERGİ SİYASƏTİ (İNGİLİSDİLLİ TARİXŞÜNASLIQ ƏSASINDA)

**Nurlan NƏSİROV***

***Açar sözlər:*** *Moğollar, İlxanlılar, vergilər, ingilisdilli tarixşünaslıq, qopçur, xərac, tamğa*

**Giriş**

Moğolların tabe etdikləri Yaxın və Orta Şərq ölkələrində həyata keçirdiyi mühüm sosial-iqtisadi tədbirlərdən biri də vergi siyasətidir. Həm keçmiş Sovet, həmdə Vətən tarixşünaslığında İlxanlılar (Hülakülər)ulusunda (1260-1357) mövcud olan vergi sistemi kifayət qədər araşdırılsa da, bu sahədə hələ də müəyyən anlaşılmazlıqlar qalmaqdadır. Belə ki, məsələni tədqiq edən tarixçilər tərəfindən bəzi vergilərin təyinatının və vergilərlə bağlı terminlərin anlamının tam aydınlaşdırılmaması problemin günümüz üçün də aktuallıq kəsb etməsinə səbəb olmuşdur. Tədqiqatçılar bunun əsas səbəbini vergilərə aid məlumatların yer aldığı qaynaqların çatışmazlığı və bəzi vergi növlərinin müxtəlif təyinatlı olması ilə izah edirlər (١2, s.529). Buna baxmayaraq görkəmli Azərbaycanlı alim akademik Ə.Ə. Əlizadənin fundamental araşdırmaları sayəsində 45-dən artıq vergi növü dövrün ilkin məxəzləri əsasında təhlil olunmuş və bu sahədə yeni tədqiqatlara bir növ istiqamət vermişdir (7, s.211-212). Bununla yanaşı məsələ ilə bağlı Z.V. Toqanın, V.V. Bartoldun, İ.Petruşevskinin, A.Yakubovskinin, S. Onullahinin, M.Heydərovun, V.Piriyevin və b. araşdırmalarınında xüsusi əhəmiyyəti vardır. Ancaq qeyd etmək lazımdır ki, mövcud tədqiqatlarda ingilisdilli tarixçilərin əsərlərindən geniş ölçüdə istifadə edilməmişdir. Bunu sözsüz ki, sovet dövrünün ideoloji təbliğatı ilə izah etmək olar. Belə ki, Sovet tarixşünaslığında II Dünya müharibəsindən sonra qərb tarixşünaslığı“burjua tarixşünaslığı” adı ilə damğalanmış və ingilisdilli tarixçilərin əsərlərinə demək olar ki, çox az hallarda müraciət olunmuşdur. Bu da tədqiqata cəlb olunmuş məsələlərə kompleks şəkildə yanaşmaq imkanının qarşısını almışdır.

Ancaq günümüzdə müstəqil Azərbaycan tarixşünaslığı ideoloji basqıların buxovundan azad olmuş, tarixlə bağlı bütün məsələlərə kompleks yanaşmaq üçün ingilisdilli tarixşünaslığa da müraciət etmək imkanı əldə etmişdir. Qeyd olunanlardan çıxış edərək məqalədə İlxanlıların hakimiyyəti zamanında Azərbaycan və Orta Şərq ölkələrində həyata keçirilən vergi siyasətinə ingilisdilli müəlliflərin tədqiqatlarını da cəlb edərək kompleks şəkildə yanaşılmağa cəhd edilmişdir.

## I. İlkin moğol hakimiyyəti zamanı həyata keçirilən vergi siyasəti.

İlk öncə vurğulamaq lazımdır ki, ingilisdilli tarixşünaslıqda sosial-iqtisadi məsələlər geniş ölçüdə tədqiqata cəlb olunmamış, daha çox siyasi məsələlərin öyrənilməsinə üstünlük verilmişdir. Buna baxmayaraq, araşdırılan problemlə bağlı H.Şurman, J.M.Smit, A.Lembton, T.Allsen D.Morqan, C.Kolbas, E. Aştor, S.Vasari və başqalarının tədqiqatlarını qeyd etmək olar. Tədqiqat zamanı məlum olur ki, qeyd olunan ingilisdilli müəlliflərin əsərlərində İlxanlılar ulusundan daha çox, Çingiz xan imperiyasının varisi hesab olunan Ali Moğol xaqanlığında mövcud olan vergi sisteminə diqqət yetirilmişdir. Bundan əlavə Hülakülər zamanında mövcud olan bir qisim əsas (qopçur, tamğa, kalan. tağar və s.) vergilər haqqında mülahizələr irəli sürən ingilisdilli müəlliflər əsərlərində problemə dərindən və kompleks şəkildə yanaşmayaraq, hətta bir sıra vergi və mükəlləfiyyətlərin adını belə çəkmirlər (16, s.80-81; 18, s.101-102).

Qədim dövlətçilik ənənələri və oturuşmuş dövlət idarəçilik aparatına sahib olmayan moğollar əksər sosial-iqtisadi həyatla bağlı idarəçilik sistemi və istilahları əski türk xaqanlıqlarından (Hun, Göytürk, Uyğur,Xarəzmşahlıq və s.) əxz etmişdilər. Təəssüflər olsun ki, keçmiş sovet və Vətən ta-

**Tarix üzrə fəlsəfə doktoru, Qərbi Kaspi Universiteti*
*E-mail: nurlan.pasha@gmail.com*

rixşünaslığında Azərbaycanda moğol ağalığı dövründə dövlət quruluşu və sosial-iqtisadi həyatla bağlı meydana çıxan bir çox terminlərin ilk dəfə moğolların tərəfindən tətbiq edilməsi fikri ortaya atılmış və bu təmayül günümüzdə də qalmaqdadır. Halbuki qeyd olunan terminlərin etimoloji təhlili deməyə əsas verir ki,vergilərlə bağlı bir sıra istilahlar fərqli adlarla və ya mahiyyət etibarı ilə moğollardan öncə də əzəli türk yurdu olan Azərbaycanda mövcud olmuşdur.

XIII yüzilin birinci yarısında moğolların tətbiq etdiyi ağır sosial-iqtisadi siyasət, xüsusilə vergi siyasəti Yaxın və Orta Şərq ölkələrinin iqtisadiyyatına ağır zərbə vurdu. Lakin həyata keçirilən ekstensiv xarakterli "örüş" siyasətini və vergilərin toplanması zamanı istifadə olunan zorakı tədbirlərin sonunun olmadığını anlayan bəzi moğol hökmdarlarıbu sahədə qayda-qanun yaratmağa cəhd etdilər. T.Allsenin araşdırmalarına görə Ali moğol xanı Ogedeyə (1227-1241) qədər moğollar tabe etdikləri xalqlardan öz köçəri həyat tərzlərinə uyğun olan və zəruri ehtiyacları üçün lazım olan əşyaları alırdılar.Bu vergilər ümumi adla **alba-qopçuri (çincə-ça-i-fa)** adlanırdı.Şimalı Çinin moğollar tərəfindən işğalından sonra isə burada ilk dəfə yerli məmur Ye-hlu Çuitsai tərəfindən vergi sistemi təsis edilmişdi. Onun bu vergi islahatını Mərkəzi Asiyada Xarəzmlimüsəlman tacir Mahmud Yalavac davam etdirmişdir (11, s.146-151). Qaynaqlardan məlum olur ki, Ye-hlu Çuitsaidən fərqli olaraq Mahmud Yalavacın vergi islahatına görə ümumi şəkildə ailədən yox, ailənin hər bir üzvündən vergi alınması qaydası tətbiq edilməyə başlanılmışdır. Münke xanın (1251-1259) hakimiyyətə keçməsi ilə moğolların tabe etdiyi xalqlara qarşı sosial-iqtisadi siyasətində, xüsusilə vergi siyasətində yeni yanaşma meydana gəldi. Mahmud Yalavacın hər bir şəxsdən vergi alınması qaydasını Münke xan zamanında Yaxın Şərqin idarəçiliyinə yenidən təyin edilmiş Arğunaka davam etdirmişdir. Qaynaqların şəhadətindən də məlum olur ki, bütün moğol uluslarının adından Azərbaycan və Xorasan mərkəz olmaqla bölgəni idarə edən Arğunaka 1254-cü ildə Münke xanın sərəncamı ilə bütün Moğol imperiyası hüdudlarında əhalinin ümumi siyahıya alınması həyata keçirdi (13, s.521). A.Ləmbtonun fikrincə bu siyahıya alma moğollara iki sistemi birlikdə – (həm əvvəlki vergiləri, həm də moğollar tərəfindən yeni tətbiq edilən vergiləri) asanlıqla tətbiq etməyə imkan yaradır, ancaq müəyyən müddət mövcud olan bu ikili sistemin əziyyətini tabe edilmiş xalqlar çəkirdi (16, s.84). Bu haqda moğollarla çağdaş olan alban mənşəli Gəncəli Kirakosda yazır ki, qadınlar istisna olunmaqla, on yaşına çatmış bütün adamları siyahıya alırdılar. Əhalidən müəyyən olunmuş həddən artıq olan vergiləri amansızlıqla tələb edirdilər, xalq dilənçi vəziyyətinə düşmüşdü. Vergi yığanlar əhaliyə görünməmiş əzab və işgəncələr verirdilər (2, s.150). Mənbənin verdiyi bilgidən aydın olur ki, moğolların əhalini siyahıya almaqda məqsədi vergilərin miqdarını və yığılması işini sistemə salmaq olmuşdu. Ancaq vergilərin zorakı üsullarla və düzənsiz toplanması qaydası, zəhmətkeş kütlənin istismarı, vergi məmurlarının özbaşınalıqları bu siyahıya alma nəticəsində də aradan qalxmadı.

**II.İlxanlı ulusunun yaranmasından sonra həyata keçirilən vergi siyasəti**

Dövrün qaynaqlarına söykənən əksər araşdırmacılar hesab edir ki, vergilərin düzənsiz qaydada toplanmasının əsas səbəbi tabe edilmiş Orta Şərq bölgəsində hələ də vahid mərkəzləşmiş moğol dövlətinin mövcud olmaması idi. Məsələni yaxşı anlayan Münke xan tərəfindən qardaşı Hülakü xanın (1260-1265) bölgəyə göndərilməsi və burada müstəqil ulusun təsisi vergi sistemini də ciddi dəyişikliyə səbəb oldu. Təbii ki, İlxanlılar zamanında da vergi və mükəlləfiyyətlər moğol ağalığının mühüm iqtisadi və sosial ifadəsinə çevrilmişdi (1, s.284). Ancaq Hülakü xan və xələfləri yerli inzibati vergi sisteminin ənənələrini əsasən saxlamağa, bu sistemi Çingiz xan dövründən miras qalmış "Ulu Yasaq"nın geridə qalmış feodal patriarxal qaydaları ilə uzlaşdırmağa çalışırdılar. Məlum olur ki, bu dövrdə yenə də əhalidən dövlət və feodalların mənafeyinə 45 adda müxtəlif vergi və mükəlləfiyyət tələb edilirdi (3, s.52; 22, s.529). İlxanlılardan öncəki moğol idarəçiliyi ilə müqayisədə vergilər sistemli şəkildə yığılsa da, müxtəlif vaxtlarda, xüsusilə hakimiyyət uğrunda hərbi-köçəri moğol aristokratiyasının mübarizəsi zamanı vergilərin miqdarının ağırlığı və yığımı zamanı baş vermiş özbaşınalıqları da göstərmək lazımdır.

İlxanlılar zamanında vergi siyasətini dövlətin ictimai-siyasi durumuna görə üç dövrdə təsnif etmək olar. a) Hülakü xandan Qazan xana qədərki dövr, b) Mahmud Qazan xandan - Əbu Səidə qədər

ki dövr, c) Əbu Səidin ölümündən sonra - İlxanlı taxtı uğrunda (Çobani, Cəlair və b) feodal qrupların mübarizəsi dövrü. Qeyd olunan dövrlərdə vergi sistemini baş vermiş dəyişiklikləri anlamaq üçün bəzi vergilərin mahiyyəti və təkamülünə diqqət etmək lazımdır.

İstifadə olunan torpağın müqabilində alınan başlıca vergi **xərac (خراج)** idi. Moğollardan öncə də müsəlman Şərq dövlətlərində mövcud olmuş xərac vergisi əkin sahələrinin, bağların müqabilində ödənilməli idi. İ. Petruşevskinin araşdırmalarına əsasən İlxanlılar zamanında xərac həm məhsul (cins), həm də pul şəklidə (nəqd) yığılırdı (9, s.370). Məhsulsuzluq şəraitində bu vergi tələb olunmurdu. Bunu N.Tusi "Maliyə risaləsi"ndə qeyd etdiyi "xərab yerdə xərac olmaz"fikri də təsdiq edir (18, s.772). Alınan xərac məhsuldar mülk torpaqlarından əldə olunan məhsulun 10 və yaxud 5 faizini təşkil edirdi.Moğol hökmranlığı dövrü (XIV əsrin əvvəlləri istisna olunmaqla) vergilərin artımı ilə səciyyəvidir. Hətta rəsmi sənədlərdə qeydə alınmış məlumatlardan aydın olur ki, xərac vergisi məhsulun 60-70 faizini, əlavələrlə isə 70-80 faizini təşkil etməyə başlamışdı. Xərac ildə iki dəfə yığılırdı: ilin əvvəlində bu vergi əsasən pulla, məhsul yığımı dövründə isə pul və məhsulla ödənilirdi.edirdi (3, s.56). Verginin kəmiyyəti becərilən torpağın sahəsinə müvafiq idi. Divan torpaqlarından xəracın yığılması işi ayrı-ayrı feodalların icarəsinə verilirdi. Yığılan xəracın 1/3 hissəsi xəzinəyə daxil edilir, 1/3 isə icarədarın xeyrinə gedirdi (7, s.227). Qeyd etmək lazımdır ki, bütün vilayətlərdən xərac eyni həcmdən toplanılmırdı. Bir sıra qaynaqlarda xəracın fər və əsl adlı iki növünün olması da tədqiqatçılar tərəfindən aşkar edilmişdir. Məhsulun 60 faizindən çox yığılan xəraca əsl, vergi toplayan məmurlar əmək haqqının ödənilməsi üçün 1 faiz həcmində alınan xərac növünə isə fər deyilirdi (7, s.211; 5, s.219).Firdövsi və Ravəndiyə istinad edən Petruşevski xəracın bu növlərinin moğollardan öncə də mövcud olduğunu qeyd edir (22, s.531).

İlxanlılar dövründə mövcud olan ağır vergilərdən biri də **qopçur (قبجور)** və ya **kupçur (كوپچور)** idi. Bu terminin etimoloji izahı haqqında müxtəlif fikirlər mövcuddur. Əksər tədqiqatçılar qopçur sözünü moğolca hesab edərək, onun – "toplamaq, yığmaq" anlamı daşıdığını bildirirlər (25, s.28). Bir sıra tarixçilər isə qopçur terminin ilk dəfə uyğurlar tərəfindən istifadə edildiyini və türkcə olması fikrini irəli sürürlər (20, s.310). Eyni adlı vergiyə mahiyyətinə yaxın formada uğurlar zamanından qalmış vergi sənədlərində də rast gəlinmişdir.

Ata Məlik Cüveyninin"Tarix-e Cahanquşa" adlı əsərində verdiyi məlumatından məlum olur ki, qopçuru əvvəllər köçəri maldarlar ödəyirdilər və hər 100 baş mal-qaradan 1 baş heyvan olaraq hesablanırdı (13, s.33-34).Fəzlullah Rəşidəddin"Cami-üt təvarix" adlı əsərində yazır ki, "hər il moğol hərbiçiləri ata, qoyuna, iribuynuzlu heyvana, keçiyə və s. görə qopçur verməli idilər" (10, s.453-454), Qopçurun heyvanların sayına görə toplanmasını Azərbaycanlı tarixçi Məhəmməd ibnHinduşah Naxçıvanlı "Dəstur -əl katebfi-təin əl-məratib" əsərində də qeyd etmişdir (26,s. 149-152). T.Allseninaraşdırmalarına görə XIII əsrdə qopçur üç müxtəlif mənanı ifadə edirdi. 1) Vergi və mükəlləfiyyət 2) oturaq əhalidən alınan əmlak vergisi 3) köçərilərdən alınan mal-qara vergisi (11, s.153).A.Ləmbtonun tədqiqatlarına görə isə Ogedey,daha sonra isə Münke xan zamanında qopçur vergisi əvvəlki dövrlərdən fərqli formada yığılmağa başlandı. Belə ki, Münke xanın fərmanına əsasən varlı şəxslərdən 10 dinar, kasıblardan isə 1 dinar məbləğində qopçur vergisi alınmalı idi. Fərmandan bəlli olur ki, qopçur artıq əvvəlki kimi mal-qara ilə deyil, pul vasitəsi ilə alınır və artıq formaca köçərilərdən alınan vergi yox, əmlak vergisi anlamını da ifadə edirdi (16, s.87). D. Morqan da qopçurun əvvəllər köçərilərdən alınan vergi olduğunu, lakin, 1250-ci illərdən sonra oturaq əhalidən alınmağa başlandığını qeyd edir (17, s.67). Qopçurun bəzi qaynaqlarda şəhərlərdə sənətkar və tacirlərdən alınması haqqında bilgilərə də rast gəlinmişdir.F Rəşidəddinin məlumatına əsasən Qazan xandan əvvəlki dövrdə şəhərlərdə tamğa ilə bərabər qopçur vergisi də alınırdı. Ancaq Qazan xanın islahatına əsasən bu qayda ləğv edilmiş və şəhərlərdə yalnız tamğa vergisi alınmışdır. (23, s.19-20).Son İlxanlar zamanından günümüzə çatmış epiqrafik abidələrin tədqiqatçılar tərəfindən təhlili də qopçur vergisinin şəhər əhalisi tərəfindən Qazan xandan sonra da ödənildiyini göstərir.(23, s.20). A.Ləmbtonun İlxanlılar zamanında qopçur vergisinin təkamül prosesinə həsr etdiyi məqaləsində gəldiyi nəticəyə görə: ümumi anlamda qopçur adi və mütəmadi qaydada toplanılan can vergisi, bəzən heyvanların sayına (qopçur-imərai) bəzən isə sənətkarlq məhsulları (qopçur-i mütəhərrifə) ilə alınan vergi idi (16, s.92).

N.Tusinin “Risalə”sində olan məlumata görə isə Hülakü və Abaqa xan zamanında beş kateqoriyadan olanlar: tərxanlar, qocalar, xəstələr, dərvişlər və uşaqlar qopçur adlı can vergisindən azad hesab olunurdu (18, s.776). Dövrün əsas qaynaqlarının təhlil edən ingilisdilli tarixçilərin fikrincə qopçur İlxanlıların əhatə etdiyi bütün ərazilərdən toplanılmırdı. A. Ləmbtonun təsbitinə görə xüsusilə Qazan və Olcayu Xudabəndə (1304-1318) dövründə Fars, Şabankara və Kirman vilayətlərində qopçur (həmçinin qilan – N.N) vergisi müəyyən dövrlərdə və bəzi məntəqlərində toplanmamışdı (16,s. 89). Bu fərqli cəhəti adı çəkilən vilayətlərdə Qazan xandan öncəki dövrdə ağır vergi və mükəlləfiyyətlərin yumuşaldılması üçün atılan addım kimi izah etmək olar. Belə ki,Qazan xanın islahatı qopçur vergisinin toplanılmasında müəyyən dəyişiklik yaratdı, vergi məbləğinin özbaşına artırılması qadağan olundu. F. Rəşidəddin yazır ki: “Bu vilayətləri hakimlərin icarəsinə verirdilər, həmin hakimlərə yardım etmək üçün zəruri sayda xidmətçilər verilirdi... Bu cür hakimlər hər il rəiyyətdən 10, bəzi hallarda isə 20-30 qopçur məbləğində vergi yığırdılar, toplanmış verginin xeyli hissəsi hakimlərin, vergiyığanların əlində cəmlənirdi” (10, s.453-454). Kembricin“İran tarixi” əsərində olan məlumata görə Hülakülərdən sonrakı Cəlairlər zamanında qopçur vergisi sər-şumara adı ilə varlığını davam etdirmişdir (22, s.531).A.Ləmbton qopçur vergisinin 1498-ci ildə Ağqoyunlu Yaqub bəy və Əlvəndin adı ilə bağlı iki sənəddə çəkildiyini, Səfəvilər dövründə isə bu verginin çobanbəyi termini ilə əvəz edilə biləcəyini qeyd edir (16, s.92).

İlxanlılar zamanında qaynaqlarda az da olsa adı çəkilən vergilərdən biri də **qalan (قالان)** bəzi mənbələrdə - **kalan (كالان)** kimi qeyd olunur) adlı vergidir. Məxəzlərdə olan dolaşıq məlumatlarından dolayı qalanın vergi və ya mükəlləfiyyət olması, eləcə də tam təyinatı haqqında tədqiqatçılar arasında fikir birliyi yoxdur.Dövrün qaynaqlarında qalan vergisi digər vergilərlə müqayisədə az və adətən qopçurla sinonim, bəzən isə ayrı-ayrılıqda qeyd olunmuşdur.Bu da onun mahiyyətinin dəqiq müəyyən edilməsində çətinliklər yaradır. Buna misal olaraq göstərmək olar ki, moğolların vergi siyasəti haqqında əsas qaynaqlar hesab olunan A. Cüveyni və Fələk Ala-yi Təbrizlinin əsərlərində **qalan** vergisinin adı çəkilmir. İngilisdilli tədqiqatçılar F.Rəşidəddinin əsərindəki Qazan xanın fərmanına istinad edərək Çingiz xan Yasasına görə bəzi şəxslər üçün bu verginin əvvəlki dövrlərdə ləğv edilməsi ilə əsaslandırırlar.(21, s.50-51).

Əksər tədqiqatçılar kalanın tam mənasının və ya təyinatının dəqiq müəyyən olunmamasını bildirirlər (5, s.224; 15, s.80). Akademik V. Bartold Şərqi Türküstana aid rəsmi sənədlərə istinadən qalanın əkilən ərazidən və ümumi olaraq kəndlilərdən alınan vergi olduğunu iddia etmişdir (6, s.152). V.Bartoldun uyğur vəsiqələrinə əsaslanaraq irəli sürdüyü fikiriZ.V.Toqan da dəstəkləyərək kalanın bağça və tarlalardan alınan əsas dövlət vergisi hesab etmişdir (23, s.19). Ancaq V. Bartoldunistinad etdiyi faktı tam dəqiq hesab etməyən A.Lambton göstərilən məlumatın başqa qaynaqlarda təkrarlanmadığını bildirir.Həmçinin o, dövrün farsdilli mənbələrini təhlil edərək belə nəticəyə gəlir ki, qalan vergidan daha çox hərbi, aqrar və ya ümumi mükəlləfiyyət mənasını ifadə edir (15, s.81). C.M.Smit problemlə bağlı gəldiyi nəticəyə əsasən yazır ki, “Qaynaqlarda tez-tez mal adı ilə də qeyd olunan qalan (kalan)moğollardan öncə mövcud olmuş oturaq əhalinin ümumi mükəlləfiyyəti, eləcə də əkinçilərdən, şəhər əhalisindən, varlı köçərilərdən kənd təsərrüfatına, ticarət və ya şəhərə görə alınan vergi idi” (21, s.55). A.Ləmbtonun fikrincə isə A. Cüveynidə adı qopçurdan sonra çəkilən **əvarizat** adlı vergi əslində qalan vergisi anlamındadır. Tarixçi bu fikri “Tarix-e Cahanquşa”da olan eyni məlumatı ərəbdilli müəllif əl-Ömərinin əsərində təkrarlanarkən qeyd olunması ilə əsaslandırır (16, s.93).

Çingiz xanın (1206-1227) dövründən etibarən şəhər sənətkarları və tacirlərdən alınan vergilər **tamğa (تامغا)** termini ilə yad edilir. Ümumiyyətlə göstərmək lazımdır ki, tamğa termini tədqiqatçılar tərəfindən daha çox vergi anlamında tədqiqata cəlb olunmuşdur. Halbuki terminin ilkin təyinatı vergidən daha çox möhür və ya hər hansı qəbilənin fərqlənmə nişanı hesab olunur. Termini kompleks şəkildə tədqiq edən R.Y.Poçekasyevin haqlı olaraq qeyd etdiyi kimi ilk olaraq tamğa terminin mənşəyinin və ilkin anlamınının təsnifi edilməsi, bizə vergi kimi onun təbiətini aydın şəkildə anlamağa imkan yaradacaqdır (19, s.78). Əksər tədqiqatçıların fikrincə tamğa həm termin, həm də qeyd olu-

nan möhür anlamında ilk dəfə türk xalqları tərəfindən istifadə olunmuşdur. Terminə ilk olaraq Uyğur mətinlərində rast gəlinmişdir (19, s.78). R.Y.Poçekasyevin fikrincə tamğa sözünə VIII -X əsrlər arası Çin yazıtlarında "tanghuiyao" şəklində türklər tərəfindən çinlilərlə ticarət zamanı atlara vurulan nişan şəklində rast gəlinsə də, moğollar zamanında bu nişanları dövlət emblemi formasında hökmdarların yarlığlarında istifadə edilməyə başlandı (19, s.79). Qədim türk xaqanlıqlarında"damğalamaq, möhürləmək" kimi mənaları ifadə edən bu istilah, sonrakı vaxtlarda moğollar tərəfindən də istifadə edilmişdir. Dövün ilkin qaynaqlarında tamğaqavramı iki mənanı ifadə edir. İlkin mənada tamğalar adətən moğol hökmdarları tərəfindən müəyyən şəxslərə hər hansı idarəçilik və ya vergi toplamaq hüququ verən sənədlərə (barat, payza, yarlıq) vurulan möhürlər idi. Məsələni xüsusi tədqiqat obyekti seçən Badarak Nyamanın fikrincə moğol tayfaları daxilində çəkişmələr zamanı bir qəbilə digərindən ayrılır və beləcə əsas tayfanın damğasından yeni qəbilənin şəxsi mənsubiyyətini, nəslini göstərən törəmə damğalar yaranırdı (12, s. 21). B.Şpulerin fikrincə dövlət damğası əski zamanlardan adətən iki rəngdə olurdu. Məxfi və ən mühüm sənədlər üzərinə göy rəngli (göktamqa- N.N), əksər dövlət sənədlərinə isə qırmızı rəngli damğa vurulurdu. Bundan əlavə poçt məntəqələrində yaşıl, dairələrin yoxlanılması zamanı isə qara rəngli damğalardan istifadə olunurdu (24, s.320).

Mənbələrdə damğanın ikinci növünə vergi mənasında rast gəlinir. S.Vassarinin araşdırmalarına görə moğol dövründə tamğa satış və ya gömrük vergisi idi.Qeyd olunduğu kimi ilkin moğol hakimiyyəti zamanı digər vergilər kimi tamğa vergisi də sistemli şəkildə yığılmırdı. İlk dəfə 1234 Ogedey xanın, daha sonra isə 1250-ci ildə Münke xanın fərmanına əsasən bu vergilər sistemli şəkildə yığılmağa başlanmışdır.

D.Morqan isə tamğanı müasir dövrdə mövcud olan əlavə dəyər vergisi ilə eyniləşdirir (17, s.89). V.Bartoldun qənaətinə görə isə tamğa sənətkarlar, tacirlər və şəhər əhalisindən alınan gəlir vergisi idi (6, s.332). Ancaq R.Y.Poçekayev Sovet tarixçilərinin Qazan xanın islahatına görə qopçurun tamğa ilə əvəzlənməsi fikrini əsas götürərək onun gəlir vergisi kimi başa düşülməsini yanlış hesab edir. Müəllifin fikrincə tamğa sadəcə ticarət əməliyyatlarına görə (həm daxili, həm də xarici) alınan vergi anlamını ifadə edir (19, s.81-82).

Dövrün qaynaqlarından müəyyən olunur ki, tamğa vergisi pulla ödənilirdi və onun məbləği çox yüksək idi. Belə ki, S. Onullahinin araşdırmalarına görə Keyxatu dövründə tamğa vergisindən dövlət xəzinəsinə ildə 80 tümən gəlir daxil olurudu (4, 50). Tamğanın iki növü mövcud olmuşdu: böyük və kiçik tamğa. Böyük tamğa şəhər darvazalarında, gömrükxanalarda, məhsulların şəhərlərə gətirildiyi zaman alınırdı. Kiçik tamğa vergisi isə bazarlarda, məhsulların satışı zamanı ödənilirdi.

Kembricin"İran tarixi"ndə olan məlumata görə tamğa vergisinin nə qədər həcmdə alınması dəqiq olmasa da, F. Rəşidəddinin məktublarından təxmin etmək olur ki, hər ticarət əməliyyatından 10 faiz dəyərində alınırdı (22, s. 532). Qazan xanın islahatlarına görə şəhər həyatının dirçəldilməsi məqsədi ilə bəzi şəhərlərdə tamğa vergisi müvəqqəti olaraq ləğv edilmiş, digər şəhərlərdə isə 50 faiz azaldılmışdı. Lakin ticarətin və sənətkarlığın inkişafı sayəsində tamğanın ümumi həcmi nəinki azaldı, əksinə, bu məbləğ artmağa başladı. Həmdullah Qəzvininin verdiyi məlumata əsaslanan S. Onullahi 1340-cı ildə Təbrizdə yığılmış tamğa vergisinin ümumi məbləği 87 tümən 5000 dinar olduğunu müəyyən etmişdi(4, s.56).

Moğolların ilkin işğalları və İlxanlılar dövləti zamanında qaynaqlarda tağar termininə rast gəlmək olur. İstilahın mahiyyəti ikili xarakter daşıyır. Belə ki, ilkin moğol yürüşləri zamanı adətən moğol ordusunun təchizatıüçün lazım olan maddi nemətləri ehtiva edən tağar vergisi, həm də ölçü vahidi anlamını ifadə edir. İlxanlılar dövründə tağar çəki vahidi kimi 100 Təbriz məninə(295 kq) bərabər idi (5, s. 222).

**Nəticə**

Beləliklə, ingilisdilli tədqiqatçılar və dövrün əsas qaynaqlarını da tədqiqata cəlb etdikdən sonra məlum olur ki, Qazan xana qədərki İlxanlar zamanında tabe olan xalqlar vergi və mükəlləfiyyətlərin

dəhşətli yükü altında əziyyət çəkmişdir. Həyat şəraitinin ağırlaşması zəhmətkeşlərin kütləvi şəkildə yaşayış yerlərini tərk etməsinə səbəb olmuşdu. Qazan xan dövründə vergi ağırlığının nisbətən azaldılması, vəziyyəti qismən yaxşılaşdırsa da, ümumi tənəzzül təmayülünü aradan qaldırmadı.Araşdırmanın nəticələri həm də deməyə əsas verir ki, ingilisdilli müəlliflər bir sıra vergi və mükəlləfiyyətlər (qopçur, tamğa, qalan, xərac) haqqında mülahizələrində problemə kompleks və dərindən yanaşmayaraq hətta bəzi vergi və mükəlləfiyyətlərin adını belə çəkmirlər. Ancaq Sovet və Vətən tarixşünaslığından fərqli olaraq ingilisdilli müəlliflərin bəzi vergi növlərinin etimoloji izahından yola çıxaraq onların təyinatı və mahiyyəti ilə bağlı irəli sürdükləri alternativ tezisləri problemin aydınlaşdırılması üçün xüsusi əhəmiyyətə sahibdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. (1996). (Uzaq keçmişdən 1870-ci illərə qədər), prof.S.S.Əliyarlının redaktəsi ilə. Bakı: “Azərbaycan” nəşriyyatı
2. Azərbaycan tarixi üzrə qaynaqlar.(2007) Bakı: “Çıraq”
3. Azərbaycan tarixi. (2007). 7 cilddə, III c., Bakı: Elm
4. Onullahi S.M. (1982). XIII – XVII əsrlərdə Təbriz şəhəri, Bakı: Elm
5. Piriyev V.Z. (2003). Azərbaycan XIII – XIV əsrlərdə. Bakı: Nurlan
6. Bartold. W. (1931).İlhanlılardevrinde mali vaziyet// Türk hukuk və iktisattarihimecmuası. Cilt. I, Istanbul, Evkafmatbaası
7. Ализаде А. А. (2011). Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: Кавказ
8. Гейдаров М.Х. (1982). Города и городское ремесло Азербайджана XIII-XVII вв.Баку: Элм
9. Петрушевский И. П. (1960).Земледелие и аграрныеотношения в Иране XIII-XIV веков, Москва
10. ФазлуллахРашид-аддин. (1957).Джами-ат-таварих. А. А.Ализаде.
11. Allsen T. (1987).MongolImperialism. ThePolicies of theGrand Qan MöngkeinChina, Russia and theIslamicLands, 1251-1259, London: UniversityCalifornia Press
12. BdarachNyamaa.(2005). The coins of Mongol empire and clan tamgha of Khans.(XIII-XIV), Ulaanbaatar
13. Juvaini Ata Malik.(1997). The History of the World Conqueror, tr. J.A. Boyle, Manchester: Manchester University Press, Kolbas J. (2006). TheMongolsin Iran. Chingiz Khanto Uljaytu 1220-1309, London-NewYork: Routledge
14. Lambton A.K. (1988).Continuity and ChangeinMedievalPersia. Aspects of Administrative, Economic and SocialHistory, 11th-14th Century, BibliothekaPersia, London
15. Lambton A.K. (1953). Landlord and peasentinPersia, London: OxfordUniversity Press
16. Lambton A.K.(1986).MongolfiscaladministrationinPersia // StudiaIslamica, № 64
17. Morgan D.O.(1986). T*he Mongols. "Peoples of Europe"* series, ed. J. Campbell and Cunliffe B. Oxford: Basil Blackwell
18. Nasir al-Din Tusi on Finance. (1940).TranslatebyM.Minovi and V.Minorsky// Bulletin of the School of Oriental and African Studies, University of London, Vol. 10, No. 3,
19. Pochekaev R.Y.(2014)Tamgha and theStruggleagainst It, GoldenHordeReview, № 4(6)
20. Schurmann. H. F. (1956) Mongolian Tributary Practices of the Thirteenth Century// Harvard Journal of Asiatic Studies Vol. 19, No. 3/4 (Dec.,)
21. SmithJ.M.(1970).Mongol and NomadicTaxation// Harvard Journal of Asiatic Studies Vol. 30
22. The Cambridge History of Iran.(1968). Volume 5. The Seljuk and Mongol periods, Edited J. A. Boyle. Cambridge: Cambridge University Press
23. Togan. Z.V. (1981)Umumi Türk Tarihine Giriş, İstanbul:EnderunKitabevi, 3.baskı

24. Spuler. B. (2011). İran Moğolları. ÇevirenCemalKöprülü, Ankara: Türk Tarih Kurumu Yayınevi

25. WatabeRyoko.(2015). Census-taking and the Qubchur Taxation system in the Ilkhanid Iran: An analyses of the Census Book from the late 13thCentury Persian Accounting Manual Al-Murshid fi-al Hisab. // The Memoirs of the Tokio Bunko, 73

۲۶. ۲۹۳- محمد بن هندو شاه نخجوانی.(۱۹۷٦) دستور الکاتب فی تعیین المراتب. جلد دوم، متن علمی انتقادی با مقدمه و فهرستها و اهتمام و تصحیح: عبدالکریم اوغلی علی زاده، مسکو: اداره انتشارات دانش، ، ۶۴۹ ص.

## *XÜLASƏ*

***Nurlan NƏSIROV***

### *İlxanlılar (hülakülər) zamanında vergi siyasəti (ingilisdilli tarixşünaslıq əsasında)*

***Açar sözlər:*** *Moğollar, İlxanlılar, vergilər, ingilisdilli tarixşünaslıq, qopçur, xərac, tamğa*

XIII-XIV əsrlər Azərbaycan və Orta Şərq tarixində mürəkkəb və eyni zamanda ziddiyyətli dövrlərdən biridir. Bu dövrdə Orta Şərq coğrafiyasına hərbi kampaniyalar həyata keçirən türk-moğol tayfaları regionun sosial-iqtisadi həyatında əhəmiyyətli dəyişikliklər yaratdılar. Bu dəyişiklər dövrün ilkin qaynaqlarında dövlət gəlirləri, xüsusilə mövcud vergi sisteminə öz əksini açıq şəkildə göstərmişdir. Məqalədə Azərbaycan mərkəz olmaqla Orta Şərq coğrafiyasını əhatə edən Moğol ulus dövləti İlxanlılar sülaləsinin hakimiyyəti zamanında həyata keçirilən vergi siyasəti, onun əsas xarakterik cəhətləri və bəzi vergilərlə bağlı istilahlarının izahı ilə bağlı Vətən tarixşünaslığında mövcud olan araşdırlamalar məsələyə fərqli aspektə yanaşan ingilisdilli tarixşünaslıqla müqayisə olunaraq təhlil edilmişdir.

## *РЕЗЮМЕ*

***Нурлан НАСИРОВ***

### *Налоговая политика в период Ильханате (Хулагуид) (на основе англоязычной историографии)*

***Ключевые слова****: монголы, Ильханаты, налоги, англоязычная историография, гобчур, харадж, тамга*

XIII-XIV века-один из сложных и в тоже время противоречивых периодов в истории Азербайджана и Ближнего Востока. В этот период тюрко-монгольские племена, проводя военные походы на Ближнем Востоке, внесли существенные изменения в социально-экономическую жизнь региона. В первоисточниках эти изменения четко отражены в государственных доходах, особенно в существующей налоговой системе, государственного бюджета. В статье мы попытаемся исследовать историю налоговой политики династии монгольского улуса - Ильханата, которая охватывает географию Ближнего Востока и является центром Азербайджана, ее основные характерные черты и объяснение некоторых налоговых терминов на основе имеющихся исследований и в сравнении с англоязычной историографией, которая подходит к этому вопросу с другой стороны.

**_SUMMARY_**

**_Nurlan NASIROV_**

**_The Tax Policy in the Ilkhanid (Huleguid) Period_**
**_(based on english-language historiography)_**

**_Keywords:_** _Mongols, İlkahnates, taxes, English-language historiography, qobchur, kharaj, tamgha_

XIII-XIV centuries is one of the most complicated and, at the same time, contradictory periods in the history of Azerbaijan and the Middle East. During this period, the Turkic-Mongol tribes carried out military campaigns in the Middle East geography and created significant changes in the socio-economic life of the region. In the primary sources, these changes are reflected in the state revenues, especially in the existing tax system, of the state budget. In the article, we attempt to investigate the history of the tax policy of the Mongol ulus - Ilkhanate dynasty, which covered the geography of the Middle East, having Azerbaijan as a centre, and the main characteristic features and explanation of some tax terms based on available studies compared with the English-language historiography, which approaches the issue from a different aspect.